BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№3 *Humanitar elmlər seriyası* 2008

# HEYDƏR ƏMOĞLU VƏ ONUN AZƏRBAYCANLI MƏSLƏKDAŞLARI

T.D.HƏSƏNZADƏ

*AMEA-nın M.Füzuli ad. Əlyazmalar İnstitutu*

2005-ci ilin dekabr ayında İranda milli-azadlıq hərəkatının mücahidlərindən biri, tarixi əsərlərdə həyati və ictimai-siyasi fəaliyyəti kifayət qədər işıqlandırılmış Heydər Əmoğlunun anadan olmasının 125 ili tamam oldu. Ömrü mübarizələrdə keçmiş bu insanı yad etmək üçün İran mənbələrində olan geniş məlumatı əsas götürərək bir daha ondan bəhs etmək istədik. Heydər Əmoğlu İranda və Yaxın Şərqdə 1905-1921-ci illərdə davam etmiş milli-azadlıq hərəkatının iranlı olmayan, iranlı müstəbidlərin əli ilə öldürülmüş mücahidlərindəndir. Heydərxan Çıraqbərqi (elektrik mühəndisi olduğu üçün İranda bu adla tanınmışdır) Heydərxan Əmoğlu kimi məşhur idi. Soyadı Tanrıverdiyevdir. O, əslən Cənubi azərbaycanlı Məşhədi Mirzə Ələkbər Urməvinin və ya Səlmasinin oğludur, 1880-cı ildə Urmiyada anadan olmuşdur. Lakin babası, yəni Məşhədi Mirzə Ələkbərin atası Hacı Molla Əli Tanrıverdiyev əvvəllər qədim Azərbaycan torpağı olan Gümirdən, Rusiyanın işğalından sonra Aleksandropol, hazırda Leninakan adlanan məkandandır. Heydərxanın «Əmoğlu» adlandırılmasının səbəbini isə belə izah edirlər ki, dostları və qohumları onun atası Məşhədi Ələkbərə «əmi» deyə müraciət edirdilər, bu cəhətdən oğluna «əmoğlu» demişlər. O, 6 yaşında olarkən, 1886-cı ildə ixtisasca həkim olan atası Məşədi Ələkbər yoxsul təbəqəni müdafiə etdiyi üçün təqiblərə məruz qaldığından Aleksandropola, yəni ata yurduna köçmüşdür. Heydərxan 1896-cı ildə İrəvan gimnaziyasını, 1899-cu ildə isə Tiflis politexnik məktəbinin energetika fakültəsini bitirmişdir (1, s. 468). Heydər Əmoğlu elektrik mühəndisi sənətinə yiyələnərək, təhsilini başa vurduqdan sonra Bakının karxanalarında, Tağıyevin neft mədənlərindən birində baş mexanik işləməyə başlamışdır. Çarizmin fəhlələrə, o cümlədən Qafqaz müsəlmanlarına etdiyi zülm, zorakılıq və kobud münasibət onu və onun kimi bir sıra qeyrətli müsəlmanları vadar etdi ki, bir siyasi partiya təşkil etsinlər, əl-ələ verib birlikdə daxili və xarici müstəbidlərə qarşı mübarizə aparsınlar. İran alimi Mehdi Bamdad yazır ki, hicri-qəməri 1317-ci (1900) ildə Qafqaz müsəlmanları Nəriman Nərimanovun rəhbərliyi altında «İctimaiyyun-amiyyun» adlı bir təşkilat yaratdılar və bu komitənin Qafqazın digər şəhərlərində də şöbələri var idi (1, s. 173). O cümlədən, Bakı şöbəsi yaradıldı ki, Heydərxan və başqaları onun üzvü idilər. Sonralar İranın bir sıra azadlıqsevərləri, xüsusən, Azərbaycan bu «ictimaiyyun-amiyyuni-Qafqaz» komitəsi ilə gizli əlaqə yaratdılar. Təbrizlilərin köməyi ilə bu komitənin Təbrizdə də şöbəsi yaradıldı. Tarix elmləri doktoru T.Ə.İbrahimov bu faktı təkzib etmişdir (3, s.179).

1900-cü ildə İran şahı Müzəfəddin şah (1853-1907) və baş nazir Əliəsgərxan Əminüssultan Avropaya I səfərdən qayıdarkən Bakıda olmuşlar. Bu hadisədən sonra, 1903-cü ildə Heydərxan və onunla bir neçə nəfər elektrik mühəndisi Bakıdan İrana dəvət olunurlar. Heydərxan qulluğa götürülərək elektrik zavodunu (karxaneyi-çerağbərqi) qurmaq üçün Məşhədə göndərilir. Bir neçə il orada işlədikdən sonra Tehrana gəlir və əvvəllər işsiz qaldıqdan sonra Şah Əbdüləzim ziyarətgahı dəmir yolunun emalatxanasında çalışır. Qeyd etmək lazımdır ki, Nəsrəddin şah Qacar müqəddəs ziyarətgah olan Şah Əbdüləzimə Tehrandan dəmir yolu çəkdirmişdi. Heydər xan bir müddət sonra Rusiyadan İrana yük daşınması ilə məşğul olan Rusiya ticarət evində, daha sonra isə Hacı Hüseyn ağa Əminüzzərbin elektrik idarəsində işləyir. O, bu zaman vaxt taparaq insanları ölkədə istibdad üzərində qurulmuş səltənətə qarşı üsyana hazırlayırdı, xalqa zülm edənlərə sui-qəsd etməklə məşğul olurdu. O cümlədən, İranın baş naziri, zülmkar, mənşə etibarilə erməni Atabəy Əminüssultanın da öldürülməsində onun əli olmuşdur.

M.Q.Hidayət «Xatirat və xətərat» kitabında Məhəmmədəli şahın yolunun üstünə, Ekbatan xiyabanına bomba atılması barədə özünəməxsus fikirlərini belə bildirmişdir: «Şah məclisə sakitlik və saziş tərəfində olduğunu bildirmək üçün getdikdə, Rza xan Şüca-Leşkər bomba atdığından şahın qəzəbindən qorxub Türkiyədə gizləndi. Təbrizdə qiyam başlanarkən buraya gəldi və qiyamdan sonra Lahuti ilə birlikdə Rusiyaya getdi. Bu zaman Heydər Əmoğlu mühakimə olunurdu. (1, s. 469) Lakin dəlil olmadığından o, tezliklə azad edilmişdi. Heydər Əmoğlu İranda baş verən məşrutə inqilabı dövründə (1905 -1911) bütün üsyanların, çıxışların təşkilində əli olan şəxs idi. Azadlıq əleyhinə olanlardan azacıq da olsa nə qorxurdu, nə də onları məhv etməkdən çəkinirdi. Heydərxan gürcü, erməni və rus dillərini yaxşı bilirdi. Türk və fars dillərini də bu üç dilə əlavə etsək, deyə bilərik ki, 0, 5 dilə kamil yiyələnmişdi.

Fövqəladə nüfuza malik olan Heydər Əmoğlunun hər bir əmri dərhal yerinə yetirilirdi. Onun belə nüfuz qazanması hətta sərdari-milli Səttar xana da bəlli idi. Məşhur qəhrəman həmişə deyirdi ki, Əmoğlu nə desə, odur. O, mücahidlərlə dövlət mühafizəçiləri arasında baş verən döyüşdə Səttar xanın tərəfində vuruşmuşdur.

Məhəmmədəli şah məclisi topa tutduqdan sonra (23 cəmadiyüləvvəl 1326-24 iyun 1908) Heydərxan Bakıya üz tutdu. O, gürcü dilində məqalələr yazır, təbliğatla məşğul olurdu. Bu məqalələr Gürcüstanda çıxan qəzetlərdə dərc olunurdu. Bu fəaliyyəti ilə o, Məhəmmədəli şah əleyhinə çıxır, onunla mübarizə etmək üçün mücahidlərə və Təbrizin susdurulmuş insanlarına kömək edir, onları ayağa qaldırırdı. Onun vasitəsilə Təbrizə qüvvələr göndərilirdi, sonra o da Təbrizə gəldi və Azərbaycanda gedən inqilabi mübarizənin rəhbərlərindən biri oldu. Heydər Əmoğlu İran Demokrar firqəsinin təsisçilərindən biri, terror komitəsinin rəisi olmuşdur.

Mərhum Mahmud öz xatirələrində bir neçə ay evində gizlətdiyi Heydər Əmoğlu haqqında belə yazır:

«Heydər Əmoğlu kimi məşhur olan Heydərxan inqilabi ruhlu, çox igid, fövqəladə nüfuzlu və dərin fikirlərə malik bir insan idi. Onun çox sədaqətli, yolunda can əsirgəməyən qadir dostları var idi. Heydərxan birinci məclisin vaxtlarında Azərbaycan əncüməninin məqsəd və vəzifələrini icra etmək, inqilabı inkişaf etdirmək üçün ürəkdən çalışırdı. Baş

nazir Atabəy Mirzə Əliəsgər xanın öldürülməsi, Əlaüddövlənin evinə bomba atılması və Məhəmmədəli şaha sui-qəsd edilməsi planını Heydərxan hazırlamışdı, silahdaşları da icra etmişdilər» (1, s. 470).

Heydər Əmoğlu 1328-ci ilin rəcəb ayının doqquzunda (28 iyul, 1908) «Etidaliyyon-Ədalət» partiyasının rəhbəri Seyid Abdullanın qətlində günahkar bilinərək həbs olundu. O, bir ay həbsdə saxlanıldıqdan sonra azad edildi. Mahmud öz gündəliyində bu barədə yazır:

«Seyid Abdulla Bəhbəhai Heydər Əmoğlunun köməkçiləri tərəfindən öldürüldü. Bəhbəhainin qətlindən bir neçə gün sonra Tağızadə qərara aldı ki, İrandan getsin və mənə dedi ki, daha Tehranda qala bilmir və məndən məhrəmanə onun səfərinin təşkil edilməsini xahiş etdi. Bəhbəhainin öldürülməsində iştirak etmiş dörd nəfər terrorçu ki, onların başçısı Heydər Ərdəbili adlı Heydər Əmoğlu idi, xırda ticarətlə məşğul olan satıcı qiyafəsində Tehrandan çıxdılar. Lakin Heydər Əmoğlu tutuldu və jandarm idarəsində saxlanıldı. O, bir az sonra azad edildi və 1910-cu ilin avqust ayında Demokrat Partiyası tərəfindən gizli olaraq Bəxtiyarı elinin içərilərinə göndərildi. Heydərxan Tehrana 1911-ci ilin mart ayında qayıtdı. Həzrət Əbdüləzimə yetişdikdə gəldiyi barədə mənə xəbər verdi. Gecə nökərim İbrahimi oraya göndərdim və o, mənim evimə gəldi və bir neçə ay gizli olaraq burada yaşadı. Ailəmiz ona «əmican» deyə müraciət edirdi. Bir gecə jandarm idarəsinin rəisi öz əməkdaşlarından biri ilə xəbər verdi ki, Heydərxan yaxşı olardı İrandan çıxıb getsin. Əks təqdirdə onun gizləndiyi yer dövlətə məlum olmuşdur.

Heydərxanın İrandan getməsi üçün tədbir görüldü. O, çarvadar libasında Tehrandan Məşhədə, oradan Aşqabad yolu ilə Rusiyaya, oradan Fransaya, sonra da İsveçrəyə getdi. Rusiyada inqilaba rəhbərlik edənlərdən idi». (1, s. 470)

Heydərxan İranda Məşrutə inqilabından sonra uzun müddət Parisdə və I Dünya müharibəsinin (1914-1918) əvvəllərində 1-2 il Berlində yaşamışdır. Müharibənin ortalarında Berlindən xaric olundu. Bir müddət İstanbulda türk qoşununda xidmət etdi. O, bu orduda zabit rütbəsində çar Rusiyasına qarşı könüllü olaraq vuruşurdu. Bu döyüşdə Bağdada və Kirmanşaha da gedib çıxmışdı.

I Dünya müharibəsi dövründə İranın qərb vilayətlərində ölkəni özünün müstəmləkəsinə çevirməyə çalışan Antantaya qarşı başlayan hərəkatdan bəhs edən tarix elmləri doktoru T.Ə.İbrahimov (Şahin) yazır ki, burada müvəqqəti Milli hökumət yaranmışdı: 1915-ci ilin noyabrında İran Demokrat Partiyasının və müxtəlif siyasi qrupların iştirakı ilə Qum şəhərində yaranmış milli müdafiə komitəsi ölkənin cənub və qərb vilayətlərinin bəzilərində özünün şöbələrini təşkil etmişdi. 1916-cı il fevralın 3-də komitənin 40 nəfərə qədər nümayəndəsi Kirmanşahda toplaşaraq, Məşrutə inqilabı rəhbərlərindən Seyid Məhəmməd Təbatəbainin başçılığı ilə «məşvərət məclisi» keçirdilər. Yığıncaq qərara aldı ki, ölkənin qərb vilayətlərini əhatə edən müvəqqəti Milli hökumət yaradılmalıdır. Qərb vilayətlərində silahlı qüvvələrin başçısı Nizamüssəltənəyə tapşırıldı ki, o, Nazirlər kabinəsi yaratsın. Beləliklə Nizamüssəltənə baş və hərbi nazir oldu və digər 6 nazir müəyyən edildi. (3, s. 179)

Hadisələrin sonrakı inkişafı göstərdi ki, İran Demokrat Partiyasının jandarm qüvvələrinin komandirləri Nizamüssəltənə hökumətini devirib, onun yerində məşrutə inqilabının görkəmli nümayəndəsi Heydər Əmoğlunu müvəqqəti hökümətə rəhbər təyin etmək istədilər və Bağdad-

da olan və İngilislərə qarşı vuruşan Heydər Əmoğlunun İrana göndərilməsi üçün Bağdad gərargahı baş komandanı Fender Kotus paşaya məktub yazıldı. Lakin məktubun məzmunu Nizamüssəltənəyə çatdırılmışdı. Heydər Əmoğlu bir dəstə iranlı, ərəb və hindlini silahlandırıb özü ilə birlikdə Kirmanşaha gəlməyə hazırlaşdığı zaman onunla türk zabitləri arasında ixtilaf baş verir. O, İrana gəlməkdən imtina edərək Avropaya gedir, Berlində yaşayır.

Heydər xan 1920-ci ilin payızında Bakıda idi və o, bolşeviklər tərəfindən Bakıdan Gilana, Mirzə Kiçikxanın dəstəsinə, cəngəlilərə qarışdı (1). Lakin Kiçikxanın adamları onu şübhəli şəxs bilib orada öldürdülər. Onun öldürülməsi hadisəsi təfsilən belədir: Rəştin bir neçə kilometrliyində yerləşən Molla Sərə adlı yerdə Kiçikxanın yanında bir yığıncaq çağırılmışdı. Bunun məqsədi o idi ki, Rəştdə olan komitənin üzvləri arasında, xüsusən Ehsanulla xanın sərkərdəliyi altında yaranmış «itiyerişli»lərlə ixtilafı aradan götürüb, sülh və barışığı bərpa etsinlər, vahid partiya yaradılsın (2, s. 218).

Heydər Əmoğlu Kiçikxanın dəstəsi ilə Rəştdə fəaliyyət göstərən Ehsanulla xan arasında əlaqə yaradan rabitəçi idi. Barışığa cəhd edən bu yığıncaq gedən zaman vuruşma oldu, güllə atmağa başladılar. Nəticədə çoxlu ölən oldu. Heydərxan Əmoğlu salamat qurtarmaq üçün özünü otaqdan bayıra atdı. Qaçmağa məcbur oldu. O, Rəşt istiqamətində qaçmaq istərkən ələ keçdi və o, cəngəlilərin tanınmış başçılarından olan Həsənxan Kişdərəyi tərəfindən Eşkilən məntəqəsində əsir saxlandı və Kiçikxanın silahdaşı Müinülrüəyaya verildi. Mirzə Kiçikxan geri çəkilərkən Həsən xan Müinülrüəyaya tapşırdı ki, zindandakıları azad etsin. Bir neçə müddət keçdikdən sonra, 1921-ci ildə Heydərxan və digər fədailər birlikdə həmin şəxsin əli ilə öldürüldülər. Bunun səbəbi heç kəsə aydın olmadı. Kiçikxan onun ölümündə günahkar hesab olundu.

Heydər Əmoğlunun siyasi fəaliyyətinin tərəfdarları çox idi, o cümlədən azərbaycanlı Münşizadə və Əsədulla xan Əbülfətzadə belələrindən idi. Heydərxan Əmoğlu və onun azərbaycanlı silahdaşları İran milli-azadlıq mübarizəsi tarixində yaşayırlar (4, s. 5).

Əsədulla xan Əbülfhətzadə (? -1918) əslən Naxçıvanın Şərurlu tayfasından olan mühacir Əbülfəth xan Mirpəncin oğludur. II Rusiya–İran müharibəsindən (1826-1828) və rüsvayçı Türkmənçay müqaviləsindən sonra Rusiyanın işğal etdiyi torpaqlarda, o cümlədən Naxçıvanda vətən, torpaq təəssübü çəkən bir çox insanlar Rusiya dövlətinə tabe olmayaraq İrana mühacirət etdilər. Belə insanlardan biri də Əsədulla xan Əbülfhətzadə olmuşdur. O, əvvəlcə Kazak diviziyasının əsgəri olmuş, burada general rütbəsinə qədər yüksəlmişdir.

O, Məşrutə inqilabının (1905 -1911) ilk dövrlərindən milyonlarla insanlara qoşularaq–Məhəmmədəli şah əleyhinə çıxmış kazak diviziyasının istefa verən şəxslərindən biri olmuşdur. Əbülfhətzadə Əsədulla xan 24 iyul 1908-ci ildə Məclis topa tutulan zaman Məşrutə inqilabının fəal mücahidlərindən biri kimi Məclisi müdafiə etmişdir. O, bu hadisədən sonra milli-azadlıq hərəkatına qoşulan milyonlardan biri kimi tanındı. O, 1907-ci ildə mücahidlərin Tehrana daxil olması üçün millətin Tehran və Qəzvinə tərəf hərəkətinin təşkili işində fəal mücahidlərlə bir sırada olmuşdur. Əbülfhətzadə Tehran fəth olunduqdan sonra idarə heyəti tərəfindən şahzadə Məsud Mirzə Zilli Sultanın yanına göndərilmişdir.

1915-ci ildə ruslar Tehrana hücum edərkən Əsədulla xan mühacirlərlə birlikdə Tehrandan çıxaraq, Kirmanşaha tərəf getdi. O, 1916-cı ilin avqust ayında vaxtilə Kazak diviziyasında polkovnik rütbəsində olmuş yaxın dostu, İbrahim xan Münşizadə ilə birlikdə «Cəza komitəsi»nin təşkilində iştirak etdi. Sonra isə komitəyə təsadüfi, mənfəətgüdən, tamahkar adamlar daxil olduğundan, tezliklə Hacı Zaman Kürdüstani vasitəsilə komitənin bütün sirləri açıldı (Sonralar, yəni 1921-ci ildə Hacı Zaman Kürdüstanda öldürüldü). Onun himayəsi ilə komitə üzvləri Bani şəhərinə (Kürdüstandadır, H.T.) köçürüldülər və 1918-ci ildə orada həbs edildilər. 1918-ci ilin sentyabr ayında onlar yolda ikən Vüsuqüddövlənin tapşırığı ilə Simnanla Damğan arasında faciəli surətdə öldürüldülər. «Cəza» komitəsi cəmi on ay fəaliyyət göstərmişdir. (1, s. 112)

İbrahim xan Münşizadə (1878-1918) Kərim bəy, yaxud Kərim xan Münşiyev İrəvaninin oğludur. O, İranda yaradılmış kazak diviziyasının zabitlərindən olmuşdur. Nəsrəddin şah Qacar Avropaya 3-cü səfərindən qayıtdıqdan sonra Münşizadənin atası Kərim xan Münşiyev şahdan xahiş edir ki, ona İran vətəndaşlığını qəbul edib, İrana gəlməsinə icazə versin, şah bu xahişi qəbul edir. Münşizadənin babası Mirzə Məhəmməd Münşi olduğu üçün İrəvanda onların soyadı Münşiyev idi. İrana mühacirət etdikdən və İran vətəndaşlığını qəbul etdikdən sonra Münşiyev kəlməsi Münşizadə ilə əvəz olunmuşdur. Kərim bəy 1889-cu ildə 11 yaşlı oğlu İbrahimlə Tehrana gəlmiş və başqa mühacirlər kimi, kazak diviziyasında xidmət etməyə başlamışdır. Ondan sonra İbrahim xan da kazak dəstəsinə daxil olmuşdur. Ata-oğul xidmət etdikləri müddətdə həmişə rus əsgərlərindən narazı olmuşlar. Rus zabitləri də onların hərəkətlərini izləyirdilər və onlardan şübhələnirdilər. Polkovnik Münşizadə 1907-ci ilin əvvəllərində dostu, general Əsədulla xan Əbülfhətzadə ilə birlikdə kazak diviziyasındakı xidmətindən kənarlaşdırıldı. Onlar məşrutəçilərə qoşuldular. Məşrutə inqilabı qələbə çaldıqdan sonra Münşizadə ölkədə müxtəlif vəzifələrdə xidmət etmişdir. O cümlədən, 1910-cu ildə Şiraz polis idarəsinin rəisi, 1913-cü ildə Firuzkuhda və başqa yerlərdə polis rəisi işləmişdir. O, bu vəzifələrdə çalışarkən qanuna zidd əməllər müşahidə etdiyindən, idari və sosial vəziyyətdən xeyli narazı qalırdı, bundan təsirlənirdi. Ona görə də Vüsuqüddövlənin əvvəlinci hakimiyyəti və Həsən Müşarın vəzarəti zamanı işdən tamamilə kənarlaşdırıldı. Bu barədə özü belə yazırdı:

«Vüsuqüddövlənin kabinəsi təşkil olunan zaman mən maliyyə vəzarətindən qovuldum. Öz haqqımı tələb etmək, ədaləti üzə çıxarıb özbaşınalığı aradan qaldırmaq üçün mənim göstərdiyim cəhdlər təsir etmədi və nəticəsiz qaldı».

1916-cı ildə Münşizadənin təşəbbüsü ilə məmləkətin xainlərindən intiqam almaq üçün «Cəza komitəsi» təşkil olundu. Bu komitənin banisi və rəhbəri Münşizadənin özü idi və o, yaxın dostu Əsədulla xan Əbülfhətzadəni də buraya cəlb eləmişdi. Komitə Münşizadənin göstərişləri ilə fəaliyyət göstərmişdir. Onun üzvləri əvvəlcə məmləkətə xəyanət edənləri və anqlofilləri aradan götürməyə başladılar (1, s. 29).

Lakin məlum olduğu kimi, sonralar «Cəza komitəsi» xəyanət nəticəsində dağıldı və onun təşkilatçıları məhv edildi. Münşizadə 1918-ci ilin sentyabr ayında güllələnmişdir.

## QEYDLƏR:

1. Bamdad, Mehdi. Tarixi-ricali-İran, C.İ. Tehran: 1966.
2. Cənubi Azərbaycan Tarixinin oçerкi, 1828 -1917, Baкı: Elm, 1985, 314 s.
3. İbrahimov (Şahin) T.A. İranda siyasi cəmiyyətlər və təşкilatların yaranması və onların fəaliyyəti, (1858-1906) Baкı: Elm, 1967. 188 s.
4. Maкulu Pənahi. Heydər Əmoğlu (Roman). Baкı: Yazıçı, 1985, 414 s.

## ГЕЙДАР АМОГЛЫ И ЕГО СОРАТНИКИ.

Т.Д.ГАСАНЗАДЕ

### РЕЗЮМЕ

В статье говорится о выдающейся исторической личности, Гейдаре Амоглы, жизнь которого проходила в борьбе. Политическая деятельность этого мужественного героя свободы связана народным революционным течением в Иране.

Здесь говорится о его образовании, трудовой и политической деятельности, о сражениях в турецких войсках в качестве офицера против царской России во времена I Мировой войны.

Гейдар Амоглы был убит большевиками в Гиляне. У него было очень много политических сторонников и последователей.

Иpаванский полковник Ибрагим-хан Мунши-заде и Шарурский генерал Асадулла-хан Абульфат-заде являлись ведущими представителями национально-освободительного движения в Иране и Азербайджане.

## HAYDAR AMOQLU AND HIS ASSOCIATES

T.D.HASANZADE

### SUMMARY

In the article deal with the noteble historical person Heydar Amoqlu which waz live the straggle life. The political work of this brave, liberty man was connectted with the national liberation movement which waz flov in Iran and Southern Azerbaijan.

The Article deal with the given historic figure, the politician, Haydar Amoqlu which life passed in the constant struggle directly connected with it is national-revolutionary movement in Iran.

Here it is spoken about its formation, labour and political activity about battles in turkish armies as the officer against imperial Russia in days of I World war. Haydar Amoqlu has been killed by hand Bolsheviks in Gilan.

He had many political supporters and followers.

The Iravan colonel Ibragim khan Munshizade and Sharurani general Asadullla khan Abulfatzade were leading representatives of national-liberation motion in Iran and Azerbaijan.